## *Kamal Abdullayev:*

# Azərbaycan multikulturalizmi yeni bir elm, intellektual, yaradıcı sahədir

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri, akademik Kamal Abdullayev bildirdi ki, bu elm Azərbaycan psixologiyasını, ədəbiyyatını, mənəviyyatını özündə əks etdirir



**Prezident İlham Əliyevin Sərəncamına əsasən dünyada çoxmillətli, çoxkonfessiyalı, tolerant ölkə kimi tanınan Azərbaycanda 2016-cı il "Multikulturalizm ili" kimi qeyd olunur. Multikulturalizmin əhəmiyyətini "Bu, bizim böyük sərvətimizdir. Biz bu sərvəti qoruyuruq. Biz bunu özümüz üçün edirik" sözləri ilə dəyərləndirən dövlətimizin başçısının vurğuladığı kimi, multikulturalizmin müsbət nümunələri Azərbaycan təcrübəsində əksini tapır.**

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) keçirilən mətbuat konfransında bu sahədə qazanılan uğurlardan söhbət açan Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri, akademik Kamal Abdullayev qeyd etdi ki, "Multikulturalizm ili"nin əsas məqsədi Azərbaycan xalqının birgəyaşayış, tolerantlıq ənənələrinin dünyaya daha geniş şəkildə təqdim edilməsidir. Ölkə daxilində və sərhədlərimizdən kənarda Azərbaycanda mövcud olan, əsrlərdən bəri qorunub saxlanılan milli dəyərlərimizi özündə birləşdirən multikulturalizmə bir elm kimi maraq göstərilir, təbliğ olunur. Bu elmə marağı daha da artıran Prezident İlham Əliyevin 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan olunması haqqında imzaladığı Sərəncamdan sonra bu sahədə daha geniş təhlillər aparılır. Əgər indiyə qədər Kanada, Avstraliya, Avropa multikulturalizmi mövcud idisə, artıq Azərbaycan multikulturalizmi daha maraqlı model kimi diqqət çəkməkdədir. Azərbaycan psixologiyasını, ədəbiyyatını, mənəviyyatını özündə əks etdirən multikulturalizm çox ölkələr üçün örnəkdir. Artıq işlək model kimi tanınan Azərbaycan multikulturalizmi bir daha təsdiqləyir ki, bu gün ölkəmizdə bütün dinlərin, millətlərin nümayəndələri sərbəstdir, hansısa xristianın, yəhudinin yanından keçən azərbaycanlı ona insan kimi dəyər verir, hörmət və ehtiram göstərir.

Azərbaycanda bütün dinlərin və millətlərin nümayəndələrinin sərbəst olduğunu, multikulturalizm ənənələrinin, insani dəyərlərə sadiqliyin həmişə yaşayacağını söyləyən Dövlət müşaviri K.Abdullayev bildirdi ki, bu işdə təkcə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi deyil, intellektual dairələr, ictimai qurumlar, müxtəlif təşkilatlar, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq bütün insanlar fəal olmalı, dəyərlərimizin qorunmasına vətəndaşlıq məsuliyyəti ilə yanaşmalıdırlar: "Multikulturalizm nədir və cəmiyyətdə hansı əks-sədanı doğurur? Avropanın bir çox qabaqcıl ölkələrində belə multikulturalizmin iflasa uğraması ilə bağlı səslənən fikirlərə ən tutarlı cavab Azərbaycan modelidir. Multikulturalizm şəfqət, mərhəmət, başqasının sevincinə, kədərinə şərik çıxmaq, özünə rəva bildiyi mənəvi dəyərləri başqalarına da arzulamaq... Belə dəyərlərin sayını artırmaq da olar. Bütünlükdə isə multikulturalizm insanlığa xas olan keyfiyyətləri özündə birləşdirmək anlamında başa düşülməlidir ki, bu, da şəxsiyyəti, mənəviyyatı tamamlayan əvəzedilməz zənginlikdir. Müxtəlif düşüncə tərzinə malik insanların bir-birinin yanında rahat, asudə və arzuladıqları kimi yaşamalarının təzahürü deməkdir. Bu keyfiyyətlər sağlam vətəndaş cəmiyyətinin formalaşması, sabitliyin qorunması, birgəyaşayış qaydalarının təminatı üçün önəmlidir. Vətəndaş cəmiyyəti və dövlət məsuliyyəti kimi amillər bir-birini tamamlayanda birgəyaşayış qaydaları təmin olunur. Dövlət cəmiyyətdən gələn tələbatı həyata keçirir, cəmiyyət isə dövlətin qanunlarına riayət edir. Bu təcrübənin reallığı dünyada tətbiq olunan Azərbaycan multikulturalizmi barədə təkmil düşüncə formalaşdırır."

Kamal Abdullayev bu kimi insani keyfiyyətləri özündə birləşdirən multikulturalizmin artıq Avropanın bir çox universitetlərində tədris olunduğunu bildirərək vurğuladı ki, eyni zamanda Azərbaycan elmi, tarixi, mənəvi irsi, dini, siyasi vəziyyəti, milli adət-ənənələri barədə təkmil məlumat verən, intellektual, yaradıcı elm kimi öyrənilən Azərbaycan multikultralizmi perspektivi olan bir sahədir

Bu kimi dəyərlərin daha geniş mənada təbliği, öyrənilməsi üçün görülən işlərdən bəhs edən Kamal Abdullayevin açıqlamasından aydın oldu ki, artıq 20-yə yaxın universitetdə multikulturalizm fənn kimi tədris olunur: "Azərbaycanda multikulturalizmin qaynaqlarını özündə ehtiva edən kitabların, dərsliklərin yazılması, bu fənnə aid proqramların hazırlanması faydalı olmaqla, gərgin zəhmət, məsuliyyət tələb edir.

Xalqımızın, dövlətimizin siyasi, iqtisadi, mədəni inkişafını əks etdirən uğurlarımızın multikulturalizm çərçivəsində öyrədilməsi isə Azərbaycanın tanıdılmasına xidmət edir. Bütün vətəndaş cəmiyyətlərinin potensialını, imkanlarını koordinasiya etməklə belə məsuliyyətli işin öhdəsindən gəlmək mümkündür."

Görülən işlər sırasında yüksək dəyərləndirilən məqamlar arasında bir əsr bundan əvvəl alman alimi Henrix Fridrix fon Ditsin ""Kitabi-Dədə Qorqud". Basatın təpəgözü öldürdüyü boyu bəyan edər" kitabındakı araşdırmalarını xatırladan Kamal Abdullayev bildirdi ki, bu kitab artıq 25 dildə nəşr olunub.

"Azərbaycan tarixi ənənələri olan, idman sahəsində uğur qazanan, mədəni müxtəlifliyi ilə öyünməyə haqqı olan bir ölkədir" söyləyən dövlət müşaviri vurğuladı ki, Azərbaycanın tarixinin, adət-ənənələrinin öyrədilməsi məqsədilə təşkil olunan, Avropa və Azərbaycan ali məktəbləri tələbələrinin cəlb olunduqları "Yay məktəbi"nin yaradılması ilə xarici ölkələrdə yaşayan gənclərin ölkəmiz haqqında zəngin məlumat əldə etməsi yaxşı təşəbbüsdür. Vurğulandı ki, gələcəkdə bu məqsədlə "Qış məktəbi"nin yaradılması da nəzərdə tutulur. Xarici tələbələr şimal bölgəmizlə tanışlıqdan məmnun qalaraq bu rayonlarda mehriban bir ailə kimi yaşayan müxtəlif millətlərə mənsub insanların bir-birinə hörmətlə yanaşmalarından heyrətləndilər. Sonra isə müşahidələrini intellektual material kimi ölkələrində sosial şəbəkələrdə yaydılar: "Los Ancelesdən ölkəmizə qonaqlar gəlmişdi. Respublikamızla ətraflı tanış olub yüksək təəssüratla ölkələrinə qayıdandan sonra Azərbaycanda gördüklərini "Tayms" jurnalında nəşr etdirdikləri "Azərbaycan Şərqdə multikulturalizmin və tolerantlığın örnəyidir" adlı yazı ilə bildirdilər. Təbii ki, yazının müəllifi təhdidlərlə də qarşılaşdı. Həmin yazı ilə bağlı erməni lobbisinin əsassız, ədalətsiz qaldırdığı hay-küyə ilk tutarlı cavabı da elə Azərbaycandan olan həmin tələbə gənclər öz müşahidələri əsasında bildirdilər. Multikulturalizm istiqamətində əldə olunan bu kimi nailiyyətlərdən çox danışmaq olar. Yeni Azərbaycanın formalaşdırdığı haqqın, ədalətin müdafiəsi bizim iştirakımız olmadan da sözünü deyə bilir. Almaniyanın Drezden şəhərində rəsmi qaydada BBMM-in filialının yaranması da Azərbaycan modelinə maraqdan irəli gəlir. Belə filialların Portuqaliyada, İsveçdə, Qazaxıstanda, Rusiyada yaradılması istiqamətində işlər başa çatmaq üzrədir. Əsas məsələ odur ki, multikulturalizmin Azərbaycan modelini tədris edən ölkələr bunu özlərinin milli mənəvi dəyərləri ilə müqayisəli şəkildə təhlil edir, öyrənirlər. Bu, bir daha göstərir ki, dini, sosial, intellektual müstəvidə Azərbaycan modeli işlək və örnəkdir. Dostlarımızı təəccübləndirir, düşmənlərimizi qıcıqlandırır."

K.Abdullayev cari ildə və gələcəkdə görüləcək işlər barədə də məlumat verdi. Bildirdi ki, Azərbaycan multikulturalizminin əyani şəkildə öyrədilməsi üçün dolğun, zəngin, əsrlərdən bəri dəyərlərimizi yaşadan kitablar hazırlanır. "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları", "Azərbaycan multikulturalizminin elmi, fəlsəfi və publisistik qaynaqları", "Azərbaycan multikulturalizminin siyasi və hüquqi qaynaqları" adlı kitabların hazırlanması ilə dünya xalqlarına multikulturalizm barədə daha mükəmməl məlumatlar çatdırılacaq.

Qeyd olundu ki, Nardaranda Bilik Fondu, Klassik Ədəbiyyat Mərkəzi açılacaq, rayonlarda Yaradıcılıq fakültələri təşkil olunacaq. Multikultural mədəniyyətin öyrənilməsi üçün ali məktəblərdə bu sahə üzrə kafedralar yaradılacaq. Azərbaycan multikulturalizminin dünyada daha geniş təbliği məqsədilə xarici jurnalistlər ölkəmizə dəvət olunacaq, xarici ölkələrdə "dəyirmi masa"lar təşkil ediləcək.

Sonda Dövlət müşaviri K.Abdullayev jurnalistlərin suallarını ətraflı cavablandırdı.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***